## Şəmsulla Aqayi

### Zalim Qızı

Ruhlara oxşayır canları alır
Çalanda sazını, bu zalım qızı
Kərəmə Əslidi, Nəbiyə Həcər
Çalanda sazını bu zalim qızı

Aytəkin nur saçır saz dünyasında
Ulduz tək sayrışır söz dünyasında
"Aytəkin" yaşayır öz dünyasında
Çalanda sazını bu zalım qızı

Kərəmidə gədihləri bağlayır
Hər havası ürəkləri dağlayır
Həm ağladır, həm də özü ağlayır
Çalanda sazını bu zalim qız.

Saz döşündə sanki Fateh Paşadır
İnsanlığı sənətinə qoşadır.
Bu "Dilqəmi" *Şəmsulla*'yı yaşadır
Çalanda sazını bu zalim qızı